# İçdiyi hərbi anda sadiq qaldı

**Qırx dörd gün davam edən Vətən müharibəsində böyük igidlik və qəhrəmanlıq göstərərək, torpaq uğrunda canından keçən hərbçilərimizidən biri də Hüseynov Nicat Adil oğludur. Qarabağın azadlığı uğrunda döyüşlərə atılanda Nicatın 33 yaşı var idi. Nicat onu tanıyanların yaddaşında elə bu yaşda da qalacaq.**

Hüseynov Nicat Adil oğlu 12 mart 1987-ci ildə Hacıqabul rayonunun Meyniman kəndində anadan olub. Orta təhsilini başa vurduqdan sonra həmin ilin oktyabrında hərbi xidmətə çağrılıb. Vətən qarşısındakı övladlıq borcunu cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində yerinə yetirib. Əsgəri xidmətini layiqincə başa vuraraq 2007-ci ilin aprelində alnıaçıq valideynlərinin yanına dönüb.

Yenidən ordu sıralarına qayıdıb xidmət etmək istəyi heç vaxt Nicatın qəlbini tərk etməyib. Ürəyində dolaşan arzu və istəyinə qovuşmaq üçün o, 2019-cu ildə qəti addım atıb. Həmin ilin noyabr ayında Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kursunda oxumağa başlayıb. Kursu uğurla başa vurduqdan sonra Nicat Hüseynov xidmət etmək üçün "N" hərbi hissəsinə göndərilib.

Ürəyi Vətən eşqi ilə döyünən Nicat Hüseynov Qarabağı azad görmək, doğma ocaqlar uğrunda vuruşmaq arzusunda idi. Buna görə də 2020-ci il sentyabr ayının 27-də erməni təxribatının nəticəsində Vətən müharibəsi başlayan kimi ilk döyüşə atılanlardan biri də Nicat Hüseynov oldu. Cəsur döyüşçü əks-həmlə əməliyyatları zamanı dəqiq atəş zərbələri ilə neçə-neçə erməni qəsbkarını məhv etdi. Nicat Hüseynov 44 gün davam edən İkinci Qarabağ müharibəsində 25 gün vuruşdu. Füzuli, Cəbrayıl, Qubadlı və Laçın rayonu uğrunda gedən döyüşlərdə həmişə ön sıralarda oldu. Bu ərazilərin erməni işğalçılarından azad olunmasında böyük rəşadət göstərdi.

Döyüş təcrübəsi yüksək olan Nicat Hüseynovun erməni qəsbkarlarına atdığı güllələrdən biri də hədəfdən yayınmırdı. Yurdumuzu düşməndən azad edən əsgərin sevinci yerə-göyə sığmırdı. Həmin anlarda onun qəlbi vüqarla, iftixarla döyünürdü.



Döyüşlər uğurla davam etdikcə Nicat fikirləşirdi ki, yəqin Laçın torpağını da yağılardan təmizlədikdən sonra Qarabağın tacı olan Şuşa uğrunda vuruşacaqlar. Artıq erməni işğalçıları qüdrətli Azərbaycan Ordusunun qarşısında dayana bilməyib, bütün istiqamətlərdə geri çəkilirdi.

Əgər Nicat Hüseynov düşmən gülləsinə tuş gəlməsəydi, cəsarətlə başladığı döyüş yolunu elə sona qədər də uğurla davam etdirəcəkdi. Təəssüflər olsun ki, cəsur əsgər oktyabrın 22-də Laçın rayonunun Güləbird kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid oldu. Nicat içdiyi hərbi anda sadiq qalaraq Vətən qarşısındakı son döyüş tapşırığını da mərdliklə yerinə yetirdi. Torpaqlarımızın azadlığı naminə canından keçdi.

Vətən müharibəsində göstərdiyi igidliyə və qəhrəmanlığa görə Hüseynov Nicat Adil oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq fərmanı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medallarına layiq görülmüşdür.

***V.MƏMMƏDQULUOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 29 mart, № 64.- S.11.